# 10 aprel - inşaatçılar günüdür

Son illər muxtar respublikada iqtisadiyyatın şaxələndirilməsi və sosial sahənin inkişafı üzrə ardıcıl tədbirlər həyata keçirilmiş böyük uğurlar qazanılmışdır.

Həyata keçirilən köklü islahatlar nəticəsində infrastruktur yenilənmiş, yeni istehsal sahələri yaradılmış, inzibati binalar və digər mühüm obyektlər istifadəyə verilmişdir. Aparılan quruculuq işləri muxtar respublikanın paytaxtı Naxçıvan şəhəri, rayon mərkəzləri ilə yanaşı ən ucqar dağ kəndlərini də əhatə etmişdir.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2009-cu il 16 dekabr tarixli Sərəncamına əsasən, hər il aprelin 10-u ölkəmizdə “İnşaatçılar Günü” kimi qeyd olunur. Bu da ölkə iqtisadiyyatının inkişafında xüsusi xidmətləri olan inşaatçılara verilən ən yüksək qiymətdir.

Tikinti işləri zamanı keyfiyyətin yüksəldilməsinə diqqət artırılmış, əməyin təşkili, işçilərin sağlamlığının qorunması, təhlükəsizlik qaydalarına ciddi əməl olunması diqqət mərkəzində saxlanılmışdır.

2015-ci ildə ölkə başçısı Naxçıvana səfəri çərçivəsində Beynəlxalq Hava Limanında aparılan yenidənqurma işləri ilə tanış olmuş, Naxçıvan Muxtar Respublika Xəstəxanasının, Günəş Elektrik Stansiyasının, Sənaye Kompleksinin, Naxçıvan şəhərdaxili su və kanalizasiya şəbəkəsinin, Babək qəsəbə-Nehrəm-Arazkənd dairəvi avtomobil yolunun, Nehrəm kənd 2 saylı tam orta və Naxçıvan şəhər 2 saylı uşaq musiqi məktəblərinin açılışında iştirak etmişdir. Muxtar respublikada aparılan irimiqyaslı quruculuq tədbirlərini yüksək qiymətləndirən ölkə başçısı demişdir: **“Naxçıvanın inkişafı daim diqqət mərkəzindədir. Naxçıvan rəhbərliyi çox uğurla, səmərəli işləyir. Naxçıvanın siması dəyişir. Bu gün Naxçıvan nəinki Azərbaycanda, bölgədə, dünya**

**miqyasında ən abad şəhərlərdən biridir. Təkcə şəhərdə yox, bütün bölgələrdə də quruculuq, inkişaf işləri gedir".**

Muxtar respublikada 2015-ci ildə infrastruktur quruculuğu istiqamətində bütün maliyyə mənbələrindən əsas kapitala 951 milyon 196 min 500 manat həcmində investisiya yönəldilmişdir ki, bu da bir il öncəki müvafiq göstəricidən 2,9 faiz çoxdur. Tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyanın həcmi 3,4 faiz artaraq 834 milyon 503 min manat təşkil etmişdir ki, bu da əsas kapitala yönəldilmiş investisiyanın 88 faizini təşkil etmişdir.

Ümumilikdə 2015-ci ildə muxtar respublikada 288 müxtəlif təyinatlı obyekt tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuş, 104 müxtəlif təyinatlı obyektin tikintisi, yenidən qurulması və ya əsaslı təmiri davam etdirilmişdir.

2015-ci ildə muxtar respublikada 18 təhsil ocağı, o cümlədən 13 ümumtəhsil məktəbi, 41 mədəniyyət obyekti, 13 səhiyyə müəssisəsi, 3 idman obyekti, 63 istehsal və xidmət sahəsi, 25 inzibati bina, əlil, məcburi köçkün, qaçqın və şəhid ailələri, təbii fəlakətdən zərərçəkənlər və digər bu kimi kateqoriyalardan olan şəxslər üçün 10 fərdi ev, 11 yaşayış binası, 1 nasos stansiyası, 18 subartezian quyusu, 85 digər infrastruktur obyekti tikilmiş, yenidən qurulmuş və ya əsaslı təmir olunmuşdur.

Naxçıvan şəhərdaxili su və kanalizasiya şəbəkəsi istifadəyə verilmişdir. Culfa və Şahbuz şəhərlərinin, eləcə də ətraf kəndlərinin içməli su və kanalizasiya şəbəkəsində işlər tamamlanaraq evlərə su verilmiş, Şərur, Babək, Ordubad, Kəngərli və Sədərək rayonlarında içməli su və kanalizasiya şəbəkəsinin tikintisi davam etdirilmişdir.

Muxtar respublika əhalisinin artan hərəkət dinamikliyini təmin edən etibarlı yol-nəqliyyat infrastrukturunun yaradılması və təkmilləşdirilməsi istiqamətində də ardıcıl tədbirlər həyata keçirilmiş, 62,4 kilometrlik avtomobil yolu yenidən qurulmuşdur.

Naxçıvan şəhərində yerüstü piyada keçidinin tikintisi başa çatdırılmış, 400 yerlik avtomobil parkının tikintisi davam etdirilmişdir.

Ordubad dəmiryolu sərnişin vağzalı binasının və Ordubad yol sahəsinin inzibati binasının tikintisi, Ordubad Stansiya İdarəetmə Mərkəzinin əsaslı təmiri davam etdirilmişdir.

Naxçıvan Beynəlxalq Hava Limanında "Şərq Terminalı" yenidən qurulmuş, terminalda keçid körpüsü, teleskopik trap, lift, eskalator və yeni baqaj konveyeri quraşdırılmış, hava limanının sərnişin dövriyyəsi saatda 400-450 nəfərə çatdırılmışdır. "Qərb Terminalı"nın yenidən qurulması davam etdirilmiş, Şərur və Ordubad şəhərlərində aviakassa binaları istifadəyə verilmişdir. 2015-ci ildə rabitə və informasiya sahəsində də geniş quruculuq işləri aparılmış, ən son texnologiyaların muxtar respublikada tətbiqi təmin edilmişdir.

Bu gün muxtar respublikada çalışan inşaatçılara göstərilən diqqət və qayğı onların gələcək fəaliyyətlərində daha böyük uğurlar əldə etmələrinə, doğma diyarımızın qüdrətinin artmasına və müasirləşməsinə imkan yaradacaqdır.